# Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 806 (Cild I);2025, № 4 (I kitab), maddə 379) ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın "8. Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Əsas icraçı orqan (qurum)" sütununa "(qurum)" sözündən sonra "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri əlavə edilsin;

1.2. 8.1.6-cı yarımbəndin "Əsas icraçı orqan (qurum)" sütununa "DGK"akronimindən sonra ", RİNN, AAYDA, ADY" akronimləri əlavə edilsin;

1.3. 8.5.2-ci yarımbəndin "Digər icraçılar" sütununa "DTA"akronimindən sonra ", ETN"akronimi əlavə edilsin;

1.4. 8.7.5-ci yarımbəndin "Əsas icraçı orqan (qurum)" sütununa "NMR NK" akronimindən sonra ", AAYDA" akronimi əlavə edilsin;

1.5. "AKRONİMLƏR VƏ İXTİSARLAR" hissəsinə "ADSEA - Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözlərindən əvvəl "AAYDA - Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2025-ci il*

Azərbaycan.-2025.- 30 iyul (№ 156).- S.3.